**Uğurların davamı...**

Yeniyetmələr arasında sərbəst, yunan-Roma, qadın və çimərlik güləşi üzrə dünya çempionatı başlamışdır

Avqustun 21-də Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində yeniyetmələr arasında sərbəst, yunan-Roma, qadın və çimərlik güləşi üzrə dünya çempionatının təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə əvvəlcə Azərbaycan idmançılarının XXX London Yay Olimpiya Oyunlarındakı uğurlu iştirakından bəhs olunan video-çarx nümayiş olundu. Sonra tədbirin bədii hissəsində incəsənət ustalarının maraqlı çıxışları iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Mərasimdə çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov qeyd etdi ki, bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi respublikamızın dünyada idman ölkəsi kimi yüksək nüfuzunun göstəricisidir. Ölkəmizin qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmamış, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir. Həyata keçirilən uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan bu gün dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar.

Beynəlxalq Güləş Federasiyasının (FİLA) prezidenti Rafael Martinetti Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, beynəlxalq idman təşkilatları üçün ölkəmizin etibarlı tərəfdaş olduğunu bildirdi və keçirilən yarışın əhəmiyyətini qeyd etdi.

Dünya çempionatının yüksək səviyyədə təşkil olunduğu üçün ölkə rəhbərliyinə və Azərbaycan Güləş Federasiyasına (AGF) təşəkkürünü bildirdi.

AGF-nin birinci vitse-prezidenti Namiq Əliyev bu mötəbər yarışın təşkilini Azərbaycana etibar etdiyinə görə FİLA rəhbərliyinə öz minnətdarlığını bildirdi. N.Əliyev qeyd etdi ki, Milli Olimpiya Komitəsinin prezidenti, dövlət başçısı cənab İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğısı nəticəsində son illər Bakı şəhəri dünyanın idman mərkəzlərindən birinə çevrilmişdir. 2012-ci il ölkə Prezidenti tərəfindən Azərbaycanda «İdman ili» elan edilmişdir və bu da təbii ki, idmanın inkişafına yeni bir təkan vermişdir. Bunun nəticəsidir ki, bir neçə gün öncə Londonda başa çatan XXX Yay Olimpiya Oyunlarında Azərbaycan idmanşçıları uğurla çıxış edərək Vətənimizə 10 medalla dönmüşlər. Onlardan 7-si Azərbaycan güləşçiləri tərəfindən qazanılmışdır ki, bu da Azərbaycanın ümumi tərəqqisinin, güləş idman növünün yüksələn xətt üzrə inkişaf etdiyinin daha bir göstəricisidir. Namiq Əliyev dünyanın 41 ölkəsindən 850-dək idmançının iştirak etdiyi yeniyetmələr arasında Dünya çempionatının ədalətli idman mübarizəsi şəraitində keçəcəyinə, qonaqların ölkəmizdən xoş təəssüratlarla ayrılacaqlarına əmin olduğunu bildirdi.

Çıxışlardan sonra Beynəlxalq Güləş Federasiyası tərəfindən mükafatlandırma mərasimi keçirildi. Vergilər nazirinin müavini Sahir Məmmədxanov tədbirin yüksək səviyyədə təşkil olunmasına görə FİLA tərəfindən qızıl medalla mükafatlandırıldı. Azərbaycan Güləş Federasiyasının baş katibi, Olimpiya dərəcəli hakim Əjdər Cəfərov güləş idmanının inkişafındakı xidmətlərinə görə, FİLA-nın gümüş medalı ilə təltif olundu.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra çempionatda final görüşləri keçirildi. Yarışın ilk günündə 42, 50, 58, 69 kq və 85 kiloqram çəki dərəcəsində sərbəst güləşçilər mübarizəyə qoşuldular. Azərbaycan pəhləvanlarından Coşqun Məmmədov (42 kq), Cahid Həsənzadə (58 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxdılar. Digər pəhləvanlarımız Ruslan Suzkayev (50 kq), Çermen Baqayev (85 kq) gümüş, Samir Sadullayev (69 kq) isə bürünc medal qazandılar.

Qeyd edək ki, sərbəst, yunan-Roma, qadın güləşi üzrə dünya çempionatına avqustun 26-da yekun vurulacaq, ayın 27-də isə «Crescent Beach»də çimərlik güləşi dünya çempionatı keçiriləcək.